Regime is also a key condition for the proper organization of children's lives. Thus, yesterday's daily routine and highly professional care for children, the calm and attentive attitude of educators and nurses to each child, the tone of kind, tender speech play a key role in the formation of the personality of young children. A child's emotional state, activity, and understanding of his surroundings depend on his timely feeding and good sleep. The daily routine should ensure the appropriate age of the child, the state of health, the duration of sleep and wakefulness in each period, their certain sequence and sequence.

***Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru H. İlyasov***
***Pedaqogika kafedrasının 14 may 2021 –ci iclasın  12saylı protokolu***
***Daxil olma tarixi 11 noyabr 2021-ci il***

# GƏNC NƏSLIN ŞƏXSIYYƏT KIMI FORMALAŞMASINDA NIZAMININ ƏSƏRLƏRININ ƏHƏMIYYƏTI
## (“Sirlər xəzinəsi” poeması əsasında)

***Şərifova Tünzalə Fərrux qızı***
**Gəncə Dövlət Universiteti**
**tunzale.sherifova@mail.ru**

**Xülasə:** *Bəşəri mövzuları ilə dünya ədəbiyyatında, Yaxın və Orta Şərq xalqlarının bədii təfəkküründə yeni dövr açmış dahi Azərbaycan şairi Nizami Gəncəvi öz ictimai-siyasi və fəlsəfi baxışlarını bədii əsərlərində ifadə etmişdir. “Xəmsə”sində N.Gəncəvi təhsil və tərbiyəsində məsələlərinə geniş yer ayırmışdır. Məhz buna görə də şairin bədii irsi müasir şəraitdə pedaqoji fikir tarixinin tədqiqi üçün əsas mənbə kimi istifadə edilə bilər.*

*Nizami Gəncəvinin yaradıcılığında “Xəmsə”yə daxil olan ilk əsərlərindən olan “Sirlər xəzinəsi”ndəki hekayələr xüsusilə diqqəti cəlb edir. “Sirlər xəzinəsi” didaktik-fəlsəfi janr əsəridir. Burada tək bir süjet yoxdur. Şairin əxlaq təliminin ifadəsinə yönəlmiş fikir və düşüncələri poemadakı hekayətlərdə verilir.*

*Nizami yaradıcılığında şəxsiyyətin əxlaqi – mənəvi keyfiyyətlərinə, şəxsiyyətinstrukturunda fərdi və tipoloji xüsusiyyətlərinə diqqət yetirərək, məsələlərə nəzəri mühakimələr yolu ilə görüşləriniifadə etmişdir.*

*Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poeması çoxsaylı tərbiyə məsələləri və öyüd – nəsihətlərlə zəngindir. Dahi şairin əsərlərində veriən öyüd – nəsihətləri gənc nəslin tərbiyələnməsində, şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.*

**Açar sözlər:** Gənc nəsil, şəxsiyyət, Nizaminin əsərləri, “Sirlər xəzinəsi” poeması

**Ключевые слова:** Молодое поколение, личность, произведения Низами, поэма «Сокровищница тайн»

**Key words:** Young generation, personality, works by Nizami, poem “ The Treasury of Mysteries”

Bəşəri mövzuları ilə dünya ədəbiyyatında, Yaxın və Orta Şərq xalqlarının bədii təfəkküründə yeni dövr açmış dahi Azərbaycan şairi Nizami Gəncəvi öz ictimai-siyasi və fəlsəfi baxışlarını bədii əsərlərində ifadə etmişdir. “Xəmsə”sində N.Gəncəvi təhsil və tərbiyəsində məsələlərinə geniş yer ayırmışdır. Məhz buna görə də şairin bədii irsi müasir şəraitdə pedaqoji fikir tarixinin tədqiqi üçün əsas mənbə kimi istifadə edilə bilər. Nizaminin "Xəmsə"də toplanan epik əsərlər-"Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə",əsərləri insanların daxili aləminin saflaşmasına, özlərini dərk

edib anlamalarına xidmət edir. Bu əsərləri oxuduqca insanlar əxlaqi, etik, tərbiyəvi mövzulardan nəticə çıxarır.” [1]

N.Gəncəvi öz əsərlərində elmlərin öyrənilməsinə və biliyin mənimsənilməsinin tətbiqinə xüsusi əhəmiyyət vermişdir. Onun fikrincə, insan ancaq bu yolla kamillik zirvəsinə yüksələ bilər. O, bütün əsərlərində qaranlığa və qaranlıqlığa qarşı çıxış edirdi. Nizami hər bir kəsi elm əldə etməyə və onu öyrənməyə çağırırdı.

Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan.

Onun bütün əsərlərində elm öyrənməyə dair fikirlərə tez-tez rast gəlinir. Həyatın mənasının elm öyrənməkdə olduğuna inanan şair insanları elm əldə etməyə, dünyanın sirlərini öyrənməyə sövq etdirir.Heç kim vaxtını mənasız və boş keçirməməlidir. Hər kəs elmin və biliyin zirvələrini dərk etməyə çalışmalıdır. Şair elmli və savadlıinsanları ruhən ölməz hesab edir, onlara yüksək qiymət verir.

Şair “Leyli və Məcnun”poemasında oğlu Məhəmmədə elmin və biliyin əhəmiyyətini anlamaq üçün ona müraciətlə məsləhət verir:

Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

Nizami Gəncəvi “Oğlum Məhəmmədə nəsihət” adlandırdığı şeirini birinci dəfə övladının 7 yaşı tamam olanda, ikinci dəfə 14 yaşı tamam olanda, üçüncü dəfə isə 21 yaşı tamam olanda qələmə almışdır. Bu da heç təsadüfi deyildir. Uşaqların yaş dövrlərini yaxşı bilən şair hər yaş dövrünün özünəməxsus anlam tərzinə uyğun məsləhət verərək yol göstərir. Dahi Nizami Gəncəvinin “Oğlum Məhəmmədə nəsihət” şeirlərinin hər birində uşaqların yaş dövrlərinə uyğun yürütdüyü fikirlər “Tərbiyədə uşaqların yaş və anlaq səviyyəsinə müvafiqlik” prinsipinə uyğun olaraq irəli sürülmüşdür. Dahi şair oğlunun timsalında bütün uşaqlara tərbiyəvi təsir göstərməyə çalışmışdır. “Şair bu şeirlərində yaşa, biliyə müvafiqlik zəminində mənəvi ünsiyyətə, mənəvi yaxınlığa girmək zəminində müsbət tərbiyəvi təsir göstərməyə çalışmışdır... Nizami Gəncəvi bilirdi ki, uşaqla mənəvi ünsiyyət, mənəvi yaxınlıq yaratmaqla onlara yüksək tərbiyəvi təsir göstərmək mümkün deyil. Şeirlər oğlu Məhəmmədin şəxsində bütün uşaqları əqli-mənəvi cəhətdən zənginləşməyə səfərbər edir.”[1.]

Şairin fikrincə, gündəlik həyat (yalnız yemək, içmək, gəzmək) hələ həyat deyil. Yaşamaq, oxumaq, gününü boşa buraxmamaq, özünü tanımaq – real həyat budur. O, həyatın mənasını özünü tanımaqda, dünyanı dərketməkdə hesab edir. Dünyada yalnız bilik əbədidir. Şair təkcə özü üçün yaşamağı müsbət hesab etmir. O, cəmiyyətdəki fəaliyyətdə və idrakda insanı təmsil edir, başqa heç nəyə önəm vermir.

Böyük şair insana ancaq cəmiyyətlə sıx əlaqədə güvənir. Nizami bundan çıxış edərək ölüm və ölümsüzlük probleminə gəlir. Ölümsüzlük fəlsəfənin əsas problemidir. Nizami bu problemi nikbin nöqteyi-nəzərdən həll edir. Ölümsüzlük həyat düşüncələri ilə sıx bağlıdır. Şair ölməzlik anlayışına məhz bu fikirdən sonra gəlir. İnsanın cismən ölməzliyi önəmli deyil, o, ancaq əxlaqi və əqli baxımdan ölməz ola bilər. Bədənin ölümündən sonra insana əbədi

---

[1](https://naxcivanxeberleri.com/cemiyyet/53587-nizami-yaradiciliginda-trbiy-msllri.html)

[1.]KAMAL CAMALOV,Naxçıvan Müəllimlər İnstitutunun dosenti,Pedaqogika elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi. https://azerforum.com/az/nizami-gencevinin-oglu-mehemmede-exlaqi-menevi-deyerlere-yiyelenmeyin-yollari-haqqinda-nesiheti

olaraq yalnız mənəvi yaradıcılığı qalır. Bu, N.Gəncəvinin yaradıcılığının nikbin fəlsəfi düşüncə daşıdığını bir daha sübut edir. O, ölümsüzlükdə tənhalığa, zahidliyə belə yer vermir.

Nizaminin müəllimlik və tərbiyənin mənası ilə bağlı fikirləri bütün yaradıcılığında mühüm yer tutur. Şair qeyd edir ki, bilik qazanmaqdan utanmasan, onda hər şeyi öyrənmək olar, çox şey bilmək olar. Nəcib insanın həyatda yeri həmişə yüksəkdir. Hər kim elmi ləyaqətsiz sayarsa, özünü dünya elmindən məhrum edər. Bu onu elmi biliyin dünyanı tanımaq ideyasına gətirib çıxarır.

Şairin əqidəsinə görə, hər bir insan elmlə məşğul olmalıdır. Öyrənmək insan beynini zənginləşdirir, onu tərbiyə edir. Tərbiyə olunmuş insan öz davranışı ilə əxlaqını tərbiyə edir. Nizaminin bu fikrini başqa şeirlərində də görmək olar. O, öz qəhrəmanlarını ədəbli, tərbiyəli, savadlı, alicənab insanlar kimi təsvir edir. Məsələn, Fərhad ağıllı, sədaqətli, mehriban, eyni zamanda savadlı və nəcib insandır. Nizami onu Şapura görə kamil insan kimi təsvir etmişdir.

Nizaminin digər bir qəhrəmanı olan İsgəndər isə öz sədaqəti və mərhəmətli xüsusiyyətləri ilə seçilir. O, hər dəfə alimlərlə məsləhətləşir, onlardan elm alır. Nizamiyə görə, bilik və elm gözəl davranışa və gözəl tərbiyəyə aparan yoldur.Nizaminin etik fəlsəfəsinin mahiyyəti məhz burada açılır. Onun dünyagörüşündə əxlaq vacibdir. O, qeyd edir ki, insanın ali məqsədi gözəl davranışdır. Burada biz Nizami ilə Sokrat arasındakı oxşarlıqları görürük. Sokratın etik fəlsəfəsi daha mücərrəd xarakter daşıyırsa, Nizami əxlaqı isə konkret məzmun daşıyır.

Nizaminin əsərlərində tədrisin ümumiləşdirilməsi geniş təbliğ olunur. Böyük şair təhsili cinsə görə bölmür. Əsərlərində kişilərlə bərabər qadınlar da yetişdirilir. Onun qəhrəmanları qadın obrazları olan Leyli və Şirin savadlı insanlardır. Bu qadınlar elmin sirlərini öyrənirlər. Nizamiyə görə hər bir qadın təhsil almalıdır. Qadın əqli və bacarıq baxımından kişidən geri qalmamalıdır. İstedadlı qadın ən dərin elmlərə yiyələnməyi bacarmalıdır. Nizaminin əsərlərində verilən qadın obrazları bəzənə öz ağlı, fərasəti ilə kişiyə qalib gəlir. “Yeddi gözəl” poemasında Fitnənin Bəhram Gur üzərində qələbəsi buna ən parlaq nümunədir. Əsərin sonunda Fitnə ağlı və tədbiri ilə ustalıqla söylədiyi sözlərin düzgün və əsaslı olduğunu sübut edir.

Beləliklə, Nizami Gəncəvi öyrənmənin insan həyatında mühüm amil olduğunu dəfələrlə qeyd edir. Nizami əsərlərində təlimin və tərbiyənin əhəmiyyətini də yüksək qiymətləndirir. Onun əsərlərində əmək tərbiyəsinin zəruriliyini təsdiq etmək, əlillərə və yoxsullara yardım verilməsi tələbi, vergi və vergilərdən imtina, bacarıqlıların yüksəlişi və quldurların cilovlanması ideyası daimi təbliğ olunmuşdur.

Nizami Gəncəvinin yaradıcılığında “Xəmsə”yə daxil olan ilk əsərlərindən olan “Sirlər xəzinəsi”ndəki hekayələr xüsusilə diqqəti cəlb edir. “Sirlər xəzinəsi” didaktik-fəlsəfi janr əsəridir. Burada tək bir süjet yoxdur. Burada tək bir süjet yoxdur. Şairin əxlaq təliminin ifadəsinə yönəlmiş fikir və düşüncələri poemadakı hekayətlərdə verilir.

Şəxsiyyətin psixoloji məzmununu açıqlayan mənəvi - əxlaqi keyfiyyətlər işığında müəllifin “Sirlər xəzinəsi” poemasını araşdırdıqda dahi mütəfəkkirin şəxsiyyət problemini öz dövrü baxımından geniş bir miqyasda həll etməyə çalışmasıdır,onun insan psixologiyasının sirlərinə dərindən bələdliyi, insan qəlbinin ən incə və əsrarəngiz guşələrinə nüfuz etmək bacarığı və şəxsiyyət haqqında elmi baxışlarının bir neçə əsr qabaqladığının şahidi oluruq. Nizami yaradıcılığında şəxsiyyətin əxlaqi – mənəvi keyfiyətlərinə, şəxsiyyətinstrukturunda fərdi və tipoloji xüsusiyyətlərinə diqqət yetirərək, məsələlərə nəzəri mühakimələr yolu ilə görüşləriniifadə etmişdir. Məlum olduğu kimi, insanın şəxsiyyət kimi cəmiyyətdə formalaşmasında böyük rol oynayan vasitələrdən biri, bəlkə də birincisi, yalnız insana aid olan ünsiyyət vasitəsi- - dildir. Ünsiyyət prosesindən, danışarkən istifadə edilən sözləri düzgün seçmək, yerli – yerində işlətmək kimi məsələlərihəmişə yüksək qiymətləndirmək Nizami Gəncəvinin yaradıcılığında xüsusi yer tutur.“Sirlər xəzinəsi” poemasında şairin sözə verdiyi dəyər öz bədii ifadəsini tapır. Şairin fikrincə, dünya

yaranandan bəri qələmin ilkin sözü məhz sözün özüdür. Sözün qüdrəti onun kəsərli olmasında,yerində işlədilməsindədir. Həyatda sözdən incə, eyni zamanda, sözdən kəsərli heç nə yoxdur. Ona görə də, hər hansı bir işi görmədən, hər hansı bir addım atmadan "yüz dəfə ölçüb, bir dəfə biçmək" nə qədər vacibdirsə, danışmazdan əvvəl düşünmək, deyəcəyin hər sözü ölçüb – biçmək də o qədər əhəmiyyətlidir. İnsandan hər zaman məntiq və ağılla hərəkət tələb olunur. Bu zaman insanın ifadə etdiyi fikrin, dediyi sözün bünövrəsi möhkəm əsası olan nümunələrə söykənməlidir. Belə olduqda ifadə edilən fikrin, deyilən sözlər uzunömürlü olar. Məsələdən agah olmaq fikrin ifadəsi üçün əsasdır. Məhz sözü qızılla müqayisə edən şair "Söz dünyanın naxışıdır", - deməklə onun döyüş meydanında igidləri yendiyini, ölkələr fəth etdiyini, hər yerdə hakim olduğunu vurğulayır. Bununla da oxucuya sözün dəyərini bilməyi, əvvəl düşünüb sonra danışmağı tövsiyə edir.

Ölçülüb-biçilərsə incə fikir, incə söz,
Nə qədər gözəlləşər, olar ürəyincə söz.
Kim ki sozə söz qoşub tapar haqqın səsini,
Sözlə iki aləmin açar xəzinəsini.
("Ölçülü sözün ölçüsüz sözdən üstünlüyü")

Mütəfəkkir şair poemadakı "söhbət"lərdə və hekayətlərdə həyat həqiqətlərini, cəmiyyət üçün aktual olan bir sıra siyasi-ictimai, mənəvi problemləri qaldırır.İnsanları düşündürən, narahat edən məsələlərə münasibətini bildirir. Şahların hərəkətlərini qiymətləndirərkən şair üçün əsas meyar hökmdarın xalqa münasibəti olmuşdur. Nizamiyə görə, hakimiyyətdə filosof olmalıdır. Bu vəzifəni tutmağa ölkədə ancaq ən bilikli, maariflənmiş adam layiqdir.Müəllif "Sirlər xəzinəsi" poemasını müdrik quruluşlar xəzinəsi, həyat dərsliyi adlandırmaq olar. Şair poemadakı "söhbət"lərdə və "hekayət"lərdə humanist ideyaları açıqlayır, hökmdarlara ədalət və xeyriyyəçilik dərsi vermək istəyir. "Ümidsiz şahın günahının bağışlanması", "Nuşirəvanla vəziri və bayquşların söhbəti", "Sultan Səncər və qarı dastanı" hekayətlərində Nizami despotizmi, hökmdarların özbaşınalığını kəskin tənqid edir. Hakimiyyətdə olanların azğınlığını, tənbəlliyini, ikiüzlülüyünü, riyakarlığını pisləyir. Öyüd –nəsihətlərlə hakimiyyət sahiblərini ədalətli olmağa, xalqın rifahı üçün çalışmağa, hiylədən, kələkdən uzaq durmağa çağırır.

O, hökmdarların özbaşınalığını, zülmünü cəsarətlə ifşa edərək, məhkum və məzlum xalqın himayədarı kimi çıxış edir.Gənclərdə xeyirxahlıq, ədalətlilik, ehtiyacı olanlara kömək etmək kimi keyfiyyətlərin formalaşdırmaq üçün yeri gəldikdə istər tədris prosesində, istərsə də gündəlik həyatımızda, bu hekayətlərdəki ibrətamiz fikirlərdən istifadə edilməlidir.

Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət! (İkinci söhbət);
Yaxşılığı əzəldən adət etsən özünə,
Yaxşılığın hər yanda qapı açar üzünə.
("Nuşirəvanla vəziri və bayquşların söhbəti");

Məzlumlar güvənirlər şöhrətinə, adına,
Sən də yetiş onların köməyinə, dadına
("Sultan Səncər və qarı dastanı").

Bu baxımdan poemada zalım, ədalətsiz, riyakar hökmdarlara qarşı öz zəhməti ilə yaşayan sadə, vicdanlı insanlar böyük sevgi, hörmət və məhəbbətlə verilir. Nizaminin əsərlərində əmək problemi mühüm yer tutur. Şair öz alın təri ilə yaşayan, halal zəhmətlə ruzisini qazanmağı, heç kimə möhtac olmadan yaşamağı üstün tutan sadə, zəhmətkeş insanların mənəviyyatını yüksək qiymətləndirir. "Süleyman və qoca əkinçi" mənzum hekayəsində günlərin bir günündə istirahət üçün seyrə çıxan Süleyman padşahın qoca əkinçi ilə dialoqu maraqlıdır. Əkinçinin görkəmindən kədərlənən Süleymanın "Ey qoca, biz sulu yerlərdə toxum səpib heç nə əldə etmədik, əliboş qaldıq. Sənin yer şumlamağa belin də

yoxdur, torpağı qazıb əzab çəkmə. Bu şoran torpaqlarda məhsul əldə edə bilməzsən. Suyun yoxdur, ancaq dən səpməyə gəlirsən, susuz yanan tarlada məhsul yığmaq mümkün olarmı?" sualına qoca halal zəhməti ilə fəxr etdiyini deyir:

Nə suya, nə torpağa dikmişəm gözümü mən,
Halal zəhmət itməyib, əlləşmək eyib deyil.

Qoca əkinçinin hökmdara dediyi sirlərlə, şair əkinçinin dili ilə hökmdara əməkçi insanın ləyaqətindən söz açır, halal zəhmətlə ruzi qazanmağın asan olmamasını söyləyir. Şairin fikrincə, öz zəhməti ilə yaşayan adi bir zəhmətkeş insan hər hansı bir padşahdan, hökmdardan daha üstündür.Bu hekayə vasitəsilə gənclərə aşılanmalıdır ki, insan ömrü boyu halal əməyə tapınmalı, haramdan, özgə hesabına yaşamaqdan, ələbaxımlılıqdan çəkinməlidir. Nə yüksək təbəqəyə mənsubiyyət, nə əncabətli ailədə böyümək, nə də ən yaxşı tərbiyə və təlim şəxsiyyəti birdən-birə formalaşdırmır. Nizamiyə görə, insan məqsədinə əziyyətlər, mübarizələr, səhvlər, büdrəmələr, etiraflar yolu ilə təkmilləşə - təkmilləşə yetişməlidir. Zəhmət çəkməkdənqorxmamağı, həyatda əziyyətsiz nəyə isə nail olmağın mümkünsüzlüyünü qeyd edən, halal əməyi yüksək qiymətləndirən şair deyir:

Zəhmət fəryad deyildir, bir şadlıqdır insana,
Zəhmətinin axırı rahatlıqdır insana (Altıncı söhbət).

Nizami əməyi insana şərəf gətirən, onu yüksəldən bir amil kimi qiymətləndirir. Əməksiz dolanan şəxsiyyətin isə inkişafdan qalmasın, tənəzzülə uğramasını qeyd edir. Şair əməyin insana tərbiyəvi təsirini vurğulayır. Əməyə insanın mənəvi saflığı və müstəqilliyi amili kimi əhəmiyyət verir. Onun fikrincə zəhmətkeşlik tərbiyəsi əzmkarlıq, mətanət, çətinliklərə qarşı mübarizədə cəsarət, səbir və çalışqanlıqla tərbiyəsi ilə birləşdirilməlidir. İctimai əməyi şəxsiyyətin fəaliyyətinin başlıca forması kimi qiymətləndirən şair faydalı əməyin insana şərəf, baş ucalığı gətirəcəyini göstərir. Sadə zəhmət adamlarının işıqlı ideal carçısı olması şərə, tənbəlliyə, harama düşmən qüvvə kimi şairin «Kərpickəsən kişinin dastanı» mənzum hekayəsində bədii ifadəsini tapmışdır. "Göründüyü kimi, sənətkar burada təzadlı bir vəziyyət yaradır. Adətən dünyagörmüş qocalar cavanlara nəsihət verir, onları səhv addımdan çəkindirlər. Bu əsərdə isə əksinədir, cavan oğlan qocaya ağıl vermək, yol göstərmək fikrinə düşür. Lakin Nizami hekayədə cavan oğlanı tam mənfi planda təsvir etmir, onun gələcəyinə ümidlə baxır. Kərpickəsən kişinin sözlərini dinləyən gənc onun dediklərinin həqiqət olduğunu anlayır. Öz hərəkətindən utanan cavan oğlan səhvini başa düşüb sarsılır, göz yaşları içində qocanı tərk edir:

Cavan oğlan sarsıldı qocanın bu sözündən,
Orda durmadı getdi, yaş axıdıb gözündən.
Dünya görmüş adamdı söylədiyim bu qoca,
Öz işiylə hamının gözündə oldu uca."[1]

Gənc nəslin əxlaq tərbiyəsi gələcəyimiz üçün zəruri şərtdir. Ən mütərəqqi insani vəəxlaqı keyfiyyətlərlə Azərbaycan xalqının adət və ənənələri çox zəngindir. Gəncləri milli adət-ənənələrimiz ruhunda mərd və cəsur tərbiyə etmək deməkdir. "Tövbəsini sındıran zahidin hekayəti" ndə ibadəti, tövbəsini ataraq içkiyə aludə olmağın zərərindən, pis əməllərə qurşanmaqla insanların gözündə hörmətdən düşməsindən danışan şair gənclərin mənəvi keyfiyyətlərinin formalaşmasında "Ovçu ilə tülkünün hekayəti"ndə inam, sədaqət, təmiz niyyət, "Firidunla ceyranın hekayəti"ndə, "İsanın hekayəti"ndə gözəlliyə dəyər vermək, həyatdakı eyiblərə hikmət gözü ilə baxmaq, başqalarında eyib axtarmaq əvəzinə öz eyblərini görmək, " Oğru və tülkü hekayəti"ndə qəflət yuxusundan oyanmaq, düşmənə qarşı ayıq –

[1]Bilal Həsənli. Nizami Gəncəvinin mənzum hekayələrində həyat həqiqətlərinin, mənəvi dəyərlərin bədii əksi. https://filologiya.az/nizami-g%C9%99nc%C9%99vinin-m%C9%99nzum-hekay%C9%99l%C9%99rind%C9%99-h%C9%99yat-h%C9%99qiq%C9%99tl%C9%99rinin-m%C9%99n%C9%99vi-d%C9%99y%C9%99rl%C9%99rin-b%C9%99dii-%C9%99ksi/

sayıq olmaq kimi insana xas yüksək keyfiyyətlər ustalıqla, ibrətamiz sözlərlə təbliğ edir. Şair hər zaman doğruluğu müdafiə etmək, haqsızlığa qarşı barışmaz olmaq, lovğalanmamaq kimi xüsusiyyətləri müsbət qiymətləndirir. Ərəb əlifbasındakı hərflərin yazılış xüsusiyyətlərinə diqqəti yönəltməklə lovğa, təkəbbürlü adamları "Əlif" (ا) hərfi ilə müqayisə edir, qamətini əlif hərfinə bənzədib özünü öyməməyi məsləhət görür. "Əlif" hərfi kimi hər zaman dik, lovğa duranalara müraciət edərək: - "Bey" (ب) hərfi kimi torpağa əyilməsən, bu torpağı sevməsən, qucaqlamasan, quş kimi uça bilməzsən", - deyir.

Poemadakı diqqət çəkən hekayətlərdən biri də uşaqlara həsr olunmuş "Ağıllı uşağın hekayəti" mənzum hekayəsidir. Hekayədə ağıl, fərasət, gözüaçıqlıq insanın müsbət keyfiyyətləri kimi verilir. Gəzməyə çıxan uşaqlardan birinin oynayarkən ayağı sınır. Yaxın dostu onu quyuya atmağı təklif edir. Yaralı uşağın düşməni olan digər uşaq bu hadisənin nəticələrini ürəyində ölçüb-biçir. Uzaqgörən uşaq öz-özünə deyir: "Bu sirr gec-tez açılacaq. Mən həmin uşağın düşməniyəm. Odur ki, bu işdə məni günahkar sayacaqlar, məni şər – böhtana salacaqlar." Ağıllı uşaq tez qaçıb yaralı oğlanın atasına hadisəni xəbər verir. Mənzum hekayənin sonunda belə bir əxaqi nəticə çıxarılır:

Hər kimdə ki, vardır ağıllılıq cövhəri,
O bacarar hər işi, parlar onun gövhəri.

Poemanın ümumi məzmunundan gördüyümüz kimi, dahi şair öz fikir və ideyalarının təbliğində müxtəlif üsul və vasitələrdən istifadə etmişdir.

"Bülbül və Qızılquşun hekayəti" alleqoriyadan istifadə yolu ilə yazılmışdır. Əsərdə Bulbul bahar çağında Qızılquşa üz tutaraq özünü onunla müqayisə edir. Bülbülün gileylənməsinə, narazılığına səbəb budur ki, hər quşun səsi var, digər quşlardan fərqli olaraq, heç vaxt səsi çıxmayan Qızılquşun yeri Sultan Səncərin sarayı, şahın əlinin üstüdür, yediyi daim kəklikdir. Bülbülün isə yeri həmişə gülün tikanları dır. Şikar vaxtı qurd-quşa yem olmaq təhlükəsi altında yaşayan bülbülün həyatı daim qorxu içindədir. Bunu haqsızlıq, ədalətsizlik sayan Bülbülə Qızılquş ibrətamiz cavab verir:

Cavab verdi qızılquş: - Məni yaxşı dinləsən,
Sükutumu gör mənim, sən də susmağı öyrən.
Məndə bir az bilirəm bu dünyanın sirrini,
Yüz mətləbi qansam da, deməram heç birini.

Nizami zirək şikarçıların hakimlik etdiyi cəmiyyətdə, fəryada biganə dünyada haqq - ədalət axtarmamağı məsləhət görür, nalə, haray qoparmağın mənasızlığını göstərir.

Şairin digər "söhbət" və hekayətlərində paxıllıq, ikiüzlülük, vicdansızlıq kimi mənfi keyfiyyətlər pislənilir, dostluqda təmənnasızlıq, dünya malına aludə olmamaq kimi xüsusiyyətlər təbliğ edilir. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması çoxsaylı tərbiyə məsələləri və öyüd – nəsihətlərlə zəngindir. Dahi şairin əsərlərində verən öyüd – nəsihətləri gənc nəslin tərbiyələnməsində, şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.

## *Ədəbiyyat*

1. Nizami Gəncəvi. "Sirlər xəzinəsi". "Yazıçı" nəşriyyatı, Bakı – 1981.
2. Nizami Gəncəvi. "Sirlər xəzinəsi". "Lider" nəşriyyatı, Bakı-2004.

## *İnternet resursları*

3. Camalov K. Naxçıvan Müəllimlər İnstitutunun dosenti, Pedaqogika elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi. https://azerforum.com/az/nizami-gencevinin-oglu-mehemmede-exlaqi-menevi-deyerlere-yiyelenmeyin-yollari-haqqinda-nesiheti
4. Həsənli B. Nizami Gəncəvinin mənzum hekayələrində həyat həqiqətlərinin, mənəvi dəyərlərin bədiiəksi.https://filologiya.az/nizami-g%C9%99nc%C9%99vininm%C9%99nzumhekay%C9%99l%C9%99rind%C9%99-h%C9%99yat
5. h%C9%99qiq%C9%99tl%C9%99rinin-m%C9%99n%C9%99vi-d%C9%99y%C9%99rl%C9%99rin- b%C9%99dii-%C9%99ksi/
6. https://naxcivanxeberleri.com/cemiyyet/53587-nizami-yaradiciliginda-trbiy-msllri.html)

## ЗНАЧЕНИЕ ПРОИЗВЕДЕНИЙ НИЗАМИ В ФОРМИРОВАНИИ МОЛОДОГО ПОКОЛЕНИЯ КАК ЛИЧНОСТИ (ПО МОТИВАМ ПОЭМЫ «СОКРОВИЩНИЦА ТАЙН»)

*Шарифова Тунзала Фаррух кызы*

***Резюме***

Великий азербайджанский поэт Низами Гянджеви, открывший своей гуманной тематикой новую эру в мировой литературе и художественном мышлении народов Ближнего Востока, в своих произведениях выразил свои социально-политические и философские взгляды. В «Хамсе» Н. Гянджеви уделил большое внимание образованию и воспитанию. Поэтому творческое наследие поэта может быть использовано в современных условиях как важнейший источник для изучения истории педагогической мысли.

Особого внимания заслуживают рассказы из « Сокровищница тайн», одного из первых произведений Низами Гянджеви, вошедших в «Хамсу». «Сокровищница тайн» - произведение дидактически-философского жанра. Здесь нет единого сюжета. Мысли и идеи, направленные на выражение нравственного учения поэта, даны в рассказах поэмы.

В своем творчестве Низами обращал внимание на нравственные и духовные качества личности, индивидуальные и типологические особенности в структуре личности, а также выражал свои взгляды на проблемы посредством теоретических суждений.

Поэма Низами Гянджеви «Сокровищница тайн» богата множеством образовательных вопросов и напоминаний. Советы, данные в произведениях великого поэта, играют большую роль в воспитании подрастающего поколения, в формировании его личности.

## THE VALUE OF NIZAMI'S WORKS IN THE FORMATION OF THE YOUNG GENERATION AS A PERSON (BASED ON THE POEM "TREASURY OF MYSTERIES")

***Sharifova Tunzal Farrukh kyzy***

***Summary***

The great Azerbaijani poet Nizami Ganjavi, who opened a new era in world literature and artistic thinking of the peoples of the Middle East with his humane themes, expressed his socio-political and philosophical views in his works. In "Khamsa" N. Ganjavi paid great attention to education and upbringing. Therefore, the poet's creative heritage can be used in modern conditions as the most important source for studying the history of pedagogical thought.

Stories from the "Treasury of Mysteries", one of the first works of Nizami Ganjavi, included in "Khamsa", deserve special attention. "Treasury of Mysteries" is a work of a didactic-philosophical genre. There is no single plot here. The thoughts and ideas aimed at expressing the moral teaching of the poet are demonstrated in the stories of the poem.

In his work, Nizami drew attention to the moral and spiritual qualities of a person, individual and typological characteristics in the structure of a person, and also expressed his views on problems through theoretical judgments.

Nizami Ganjavi's poem "Treasure of Mysteries" is rich in many educational questions and reminders. The advice given in the works of the great poet plays an important role in the education of the younger generation, in the formation of his personality.

***Rəyçi: dos. A.İ.Quliyev***

***Təhsilin pedaqogikası və metodikası kafedrasının 11.12.2020-ci il tarixdə (pr.№4) online keçirilmiş iclasında təsdiq edilmişdir.***

***Daxil olduğu tarix13 dekabr 2021-ci il***